

# TARİXİ ZƏFƏRLƏRİN MÜƏLLİFİ

**Bir il tarix üçün böyük zaman deyil. Lakin ötən bir ilə nəzər saldıqda sevinir, qürur duyursan. Xalqımız xoş, fərəhli, unudulmaz günlərin iştirakçısı və şahididir.**

Keçən il fevral ayının 7-də keçirilən növbədənkənar prezident seçkilərinin təəssüratları heç vaxt unudulmur. Respublikamızın hər yerində olduğu kimi, o gün cənub bölgəsində də əsl bayram ovqatı yaşanırdı. Səhər saatlarından başlayaraq, seçicilər böyük məhəbbətlə, yüksək ovqatla xalqımızı işıqlı sabaha, gözəl gələcəyə aparan liderə səs vermək üçün məntəqələrə gəlirdilər.

Seçki məntəqələrinin qarşısında izdiham, qələbəlik hökm sürürdü. Səsvermə hüququ olanlar növbə ilə seçki məntəqələrinə daxil olur, vətəndaşlıq borclarını yerinə yetirirdilər.

Yaxşı xatırlayıram. Lənkəran rayonunun ucqar dağ kəndi olan Bəlitonun ən uzunömürlü sakini, *95 yaşlı Hüseyn Ağayev* daşınan qutuya ehtiyacı olmadığını deyib ailə üzvləri ilə birlikdə məntəqəyə gəlmişdi. Ağsaqqal torpaqlarımızı işğaldan azad edən, qürurumuzu yüksəldən, ölkəmizi dünyaya qalib dövlət kimi tanıdan cənab İlham Əliyevin namizədliyini dəstəkləmək üçün məntəqəyə gəldiyini dedi.

Rayonun *Şiləvar kəndindəki 36 saylı seçki məntəqəsində şəhid anası Vlənaz Qurbanovanın* sözləri olduğu kimi yadımdadır: "Mərd, qeyrətli sərkərdə olan yerdə torpaq basılmaz. İlk dəfə 2003-cü ildə prezident seçiləndə cənab İlham Əliyev xalqa söz verdi ki, torpaqlarımızı işğaldan azad edəcək. 2020-ci ilin payızında cəmi 44 günə torpaqlarımızı mənfur ermənilərdən təmizlədi. Oğlumun və bütün şəhidlərimizin qisası döyüş meydanlarında alındı. Artıq şəhidlərin ruhları da sevinir. Mən şəhid oğlumun arzusunu yerinə yetirib qalib xalqın rəhbərinə səs verməyə gəlmişəm".

Masallı şəhərindəki 3 saylı məntəqədə rastlaşdığımız hadisə daha təsirli idi. *Birinci qrup əlil Hikmət Məhərrəmli oğlu Məhərrəmov* əlil arabasında məntəqəyə gəlmişdi. Sevincini bizimlə belə bölüşmüdü: "Bu zəfər, qələbə seçkisidir. Mən evdə otura bilməzdim. Cənab İlham Əliyev müdrik, qətiyyətli sərkərdə kimi xalqı və ordunu səfərbər edərək düşməni diz çökdürdü. 2023-cü ilin sentyabr ayının 19-da 23 saat ərzində müzəffər ordumuz Qarabağda separatçıların yuvasını dağıtdı. Xankəndini və ətraf rayonları terrorçulardan təmizlədi. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Xalqımızın qanına susamış erməni cəlladları, qatı cinayətkarlar həbs edilərək Bakıya gətirildi. Mən qürurla qalib dövlətimizin Müzəffər rəhbərinə səs verdim".



**Respublikanın Əməkdar müəllimi Heybət Hüseynovu** yaxşı tanıyıram. 1934-cü ildə Astarada dünyaya gəlib. İxtisasca coğrafiya müəllimidir. Uzun illər Astara rayonunun məktəblərində müəllim, direktor müavini, direktor, rayon təhsil şöbəsində, Astara rayon partiya komitəsində məsul vəzifələrdə işləyib. Təqaüddə olsa da rayonun ictimai-siyasi həyatında fəal iştirak edir. Müsahibim həyatın hər üzünü görüb. Azərbaycanı dünyaya güclü, qüdrətli, qalib dövlət kimi tanıdan liderlə fəxr etdiyini deyir:

- Mən qalib ölkənin vətəndaşı, qalib xalqın nümayəndəsi olmağımla fəxr edirəm. Cənab Prezident iki əsrin münaqişəsini, 30 il davam edən savaşı cəmi 44 günə qələbəmizlə yekunlaşdırdı. Ermənilərin "artsax" adlı qondarma qurumunu, "dənizdən-dənizə böyük Ermənistan" xülyasını tarixin zibilliyinə göndərdi.

O günü heç unutmuram. 7 fevral seçkiləri xalqımızın sevimli rəhbərə sonsuz məhəbbətinin, inam və etimadının əyani nümunəsi idi. İlk dəfə olaraq ölkəmizin bütün ərazisində növbədənkənar prezident seçkiləri keçirilirdi. Seçki günü Azərbaycan Prezidentinin ailə üzvləri ilə birlikdə Xankəndi şəhərindəki seçki məntəqəsində səsverməsi dünyaya əhəmiyyətli mesaj oldu. Müdrik xalqımız seçkilərdə cənab İlham Əliyevə 92,12 faiz səs verməklə onu yenidən prezident seçdi. Bu seçki qələbə, zəfər seçkisi kimi tarixə yazılıb.

Cənab Prezidentin rəhbərliyi ilə müstəqil Azərbaycan sürətli inkişaf və tərəqqi dövrünü yaşayır. Azərbaycan heç bir dövlətdən, beynəlxalq təşkilatdan yardım almadan öz daxili imkanları hesabına işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti, bərpa, quruculuq işləri aparır. Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonları əsaslı şəkildə yenidən qurulur, "ağıllı şəhər", "ağıllı kənd"lər salınır. Erməni vandallarının dağıdıb viran qoyduğu məscidlərimiz, tarixi və mədəniyyət abidələrimiz Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu hesabına təmir və bərpa edilir. Soydaşlarımız doğma ata-baba yurdlarına böyük sevinclə, qürurla qayıdır. Şagirdlər yeni tikilmiş müasir məktəblərdə oxuyur, keçən ilin sentyabr ayından Qarabağ universiteti fəaliyyətə başlayıb, - deyə Heybət müəllim bildirir.

Möhtərəm Prezidentimizin apardığı uğurlu siyasətin mərkəzində insan amili dayanır. Ölkə iqtisadiyyatı sürətlə inkişaf edir, əhalinin məşğulluq səviyyəsi yüksəlir, rifah halı yaxşılaşır. Müstəqil, suveren Azərbaycanı böyük qələbələr və zəfərlər gözləyir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**